Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin
K İ T A B X A N A S I

# Bələdiyyə hakimiyyəti

**(sənədlər toplusu)**

**Bakı - 2005**

**66.3(5Aze)12**
**A99**

**Bələdiyyə hakimiyyəti** (sənədlər toplusu): Tammətnli elektron materiallar məcmuəsi **.-** Bakı, 2005.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kitabxanası tərəfindən hazırlanmış bu məcmuədə Azərbaycanda Bələdiyyə qurumunun yaradılması və fəaliyyəti haqqında bütün hüquqi sənədlər – qanunlar, fərmanlar, sərəncamlar, qərarlar, təlimatlar və s. toplanmışdır.

Məcmuədə materiallar fəsillər üzrə xronoloji ardıcıllıqla tərtib edilmişdir və yeni sənədlər qəbul edildikdə yeniləşdirilir.

© Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Kitabxanası, 2005

# MÜNDƏRİCAT

## I FƏSİL

## Azərbaycan Respublikasının Konstitusiyasında Bələdiyyə haqqında


- **Azərbaycan Respublikasının Konstitusiyasında Bələdiyyə haqqında**
- **IV BÖLMƏ** Yerli özünüidarəetmə
  **IX Fəsil** Bələdiyyələr **s. 4**
- **V BÖLMƏ** Hüquq və qanun
  **X Fəsil** Qanunvericilik sistemi **s. 5**
- **Yerli Özünüidarəetmə Haqqında Avropa Xartiyası** **s. 6**

# I FƏSİL

# Azərbaycan Respublikasının Konstitusiyasında Bələdiyyə haqqında

## IV BÖLMƏ
## YERLİ ÖZÜNÜİDARƏETMƏ

## IX Fəsil
## BƏLƏDİYYƏLƏR

**Maddə 142. Yerlərdə özünüidarənin təşkili**

I. Yerli özünüidarəni bələdiyyələr həyata keçirir.

II. Bələdiyyələr seçkilər əsasında yaradılır.

III. Bələdiyyələrin statusunun əsasları Konstitusiya ilə, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir.

**Maddə 143. Bələdiyyələrin işinin təşkili**

I. Bələdiyyə öz fəaliyyətini iclaslar, dairələr və başqa komissiyalar vasitəsi ilə həyata keçirir.

II Bələdiyyələrin iclaslarını bələdiyyənin sədri çağırır.

**Maddə 144. Bələdiyyələrin səlahiyyətləri**

I. Bələdiyyələrin iclaslarında aşağıdakı məsələlər həll edilir:

1) bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi;

2) bələdiyyənin reqlamentinin təsdiq edilməsi;

3) bələdiyyənin sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi;

4) yerli vergilərin və ödənişlərin müəyyən edilməsi;

5) yerli büdcənin və onun icrası haqqında hesabatın təsdiq edilməsi;

6) bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam;

7) yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi;

8) yerli iqtisadi inkişaf proqramlarının qəbul və icra edilməsi;

9) yerli ekoloji proqramların qəbul və icra edilməsi.

II. Bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər. Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti də ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

**Maddə 145. Bələdiyyələrin qərarları**

I. Bələdiyyənin iclaslarında baxılan məsələlərə dair qərarlar qəbul edilir.

II. Bələdiyyənin qərarları bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

III. Yerli vergilər və ödənişlər ilə bağlı qərarlar bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

**Maddə 146. Bələdiyyələrin müstəqilliyinin təminatı**

1. Bələdiyyələrin məhkəmə tərəfindən müdafiəsinə, dövlət orqanlarının qərarları nəticəsində yaranan əlavə xərclərinin ödənilməsinə təminat verilir.

# V BÖLMƏ
# HÜQUQ VƏ QANUN

## X Fəsil
## QANUNVERİCİLİK SİSTEMİ

**Maddə 149. Normativ hüquqi aktlar**

I. Normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə, bərabər münasibətə) əsaslanmalıdır.

II. Referendumla qəbul olunmuş aktlar yalnız dərc edildikdə onların tətbiqi və icrası vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

III. Qanunlar Konstitusiyaya zidd olmamalıdır. Yalnız dərc edilmiş qanunların tətbiqi və icrası bütün vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

**Maddə 150. Bələdiyyə aktları**

I. Bələdiyyələrin qəbul etdikləri aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə, bərabər münasibətə) əsaslanmalı, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) zidd olmamalıdır.

II. Bələdiyyənin qəbul etdiyi aktın icrası onun ərazisində yaşayan vətəndaşlar və onun ərazisində yerləşən hüquqi şəxslər üçün məcburidir.

# Yerli Özünüidarəetmə Haqqında
# Avropa Xartiyası

**Strasburq, 15 oktyabr 1985-ci il**

Hər bir Avropa vətəndaşı yaşadığı dövlətin Konstitusiya quruluşundan asılı olmayaraq, - istər bu, Monarxiya olsun, yaxud Respublika olsun, dövlət formasından asılı olmayaraq – istər bu, Federasiya olsun, yaxud Unitar dövlət olsun, özünü ilk növbədə yerli hakimiyyət səviyyəsində ifadə və təsdiq edir; o, burada onun gündəlik həyatına bilavasitə təsir göstərən qərarların qəbul olunmasında iştirak edə bilər.

Yerli özünüidarənin Avropa Xartiyası 15 oktyabr 1985-ci ildə imzalanmaq üçün açılmış və 1 sentyabr 1988-ci ildə qüvvəyə minərək, yerli hakimiyyətlərin müdafiəsi, hüquq və azadlıqlarının möhkəmləndirilməsinə dair ümumavropa normalarının əsasını qoymuşdur.

**Avropa Yerli Regional Hakimiyyətlərinin Konqresi -** 1994-cü ildə yaradılmış Avropa Yerli və Regional Hakimiyyətlərinin Konqresi (AYRHK) yerli və regional hakimiyyətləri təmsil edən Avropa Şurasının orqanıdır. Bu orqandan əsas məqsəd mərkəzi hakimiyyətlərin səmərəli yerli demokratiyanı inkişaf etdirmək istəyini şövqləndirmək yolu ilə Avropa ölkələrinin yerli və regional hakimiyyətlərinin siyasi, inzibati və maliyyə muxtariyyətini müdafiə etmək və onlara yardım göstərməkdir.

**Mövcud Xartiyanı imzalamış**
**Avropa Şurasının üzvü olan Dövlətlər:**

***Hesab edərək*** ki, Avropa Şurasından məqsəd ümumi sərvəti təşkil edən ideалların və prinsiplərin təntənəsi və müdafiəsi naminə onun üzvləri arasında daha möhkəm birliyə nail olmaqdan ibarətdir;

***Hesab edərək*** ki, idarəetmə sahəsində sazişlərin bağlanması bu məqsədin əldə edilməsinə xidmət edən vasitələrdən biridir;

***Hesab edərək*** ki, yerli özünüidarə orqanları istənilən demokratik quruluşun əsaslarından birini təşkil edirlər;

***Hesab edərək*** ki, vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüququ bütün dövlətlər - Avropa Şurasının üzvləri üçün ümumi olan demokratik prinsiplərə aiddir;

belə bir əqidədən ***çıxış edərək*** ki, bu hüquq bilavasitə məhz yerli səviyyədə həyata keçirilə bilər;

belə bir əqidədən ***çıxış edərək* ki,** real hakimiyyətə malik olan yerli özünüidarə orqanlarının mövcudluğu səmərəli və eyni zamanda vətəndaş üçün yaxın olan idarəetməni təmin edə bilər;

***dərk edərək*** ki, müxtəlif Avropa ölkələrində özünüidarənin müdafiəsi və möhkəmləndirilməsi demokratiya və dövlətin desentralizasiya prinsiplərinə əsaslanan Avropanın qurulması işinə böyük töhfədir;

***təsdiq edərək*** ki, bu, demokratik yolla yaradılmış və öz səlahiyyətləri, bu səlahiyyətlərin həyata keçirilməsi qaydası və bunun üçün zəruri vasitələr barədə geniş muxtariyyətə malik olan yerli özünüidarə orqanlarının mövcudluğunu nəzərdə tutur, aşağıdakılar haqqında razılığa gəlmişlər.

**Maddə 1.**

Tərəflər, sonrakı maddələrə mövcud Xartiyanın 12-ci maddəsində nəzərdə tutulmuş qaydada və həcmdə əməl etməyi öz öhdələrinə götürürlər.

**Maddə 2. Yerli özünüidarənin konstitusion və qanunverici əsasları**

Yerli özünüidarənin prinsipi ölkənin qanunvericiliyində və imkan daxilində ölkənin Konstitusiyasında tanınmalıdır.

**Maddə 3. Yerli özünüidarə anlayışı**

1. Yerli özünüidarə dedikdə, yerli özünüidarə orqanlarının qanun çərçivəsində, məsuliyyəti öz üzərinə götürərək və yerli əhalinin mənafeyi naminə dövlət işlərinin böyük bir hissəsini nizama salmaq və onu idarə etmək hüququ və real bacarığı başa düşülür.

2. Bu hüquq azad, gizli, bərabər, birbaşa və ümumi səsvermə yolu ilə seçilmiş üzvlərdən ibarət olan şuralar və ya yığıncaqlar tərəfindən keçirilir. Şuraların və ya yığıncaqların onlara hesabat verən icra orqanları ola bilər. Bu müddəalar vətəndaşların yığıncaqlara, qanunun yol verdiyi yerlərdə referenduma, yaxud vətəndaşların bilavasitə iştirakının hər hansı bir formasına müraciət etməsini istisna etmir.

**Maddə 4. Yerli özünüidarənin səlahiyyət sahəsi**

1. Yerli özünüidarənin əsas səlahiyyətləri Konstitusiya və qanunla müəyyən edilir. Lakin bu müddəa yerli özünüidarə orqanlarına qanuna uyğun olaraq ayrı-ayrı konkret səlahiyyətlərin verilməsini istisna etmir.

2. Yerli özünüidarə orqanları qanunun müəyyən etdiyi çərçivədə, onların səlahiyyətləri dairəsindən çıxarılaraq digər hakimiyyət orqanının səlahiyyətinə verilməmiş hər hansı bir məsələ üzrə öz şəxsi təşəbbüslərinin həyata keçirilməsi üçün tam sərbəst hərəkət edə bilərlər.

3. Dövlət səlahiyyətlərinin həyata keçirilməsi bir qayda olaraq, vətəndaşlara ən yaxın olan hakimiyyət orqanlarının üzərinə qoyulmalıdır. Bu səlahiyyətlərdən hər hansı birinin digər hakimiyyət orqanına verilməsi qarşıya qoyulmuş vəzifənin həcmi və xarakterini, habelə səmərə və qənaət tələblərini nəzərə almaqla həyata keçirilməlidir.

4. Yerli özünüidarə orqanlarına verilən səlahiyyətlər bir qayda olaraq tam və müstəsna olmalıdır. Bu səlahiyyətlər bu və ya digər mərkəzi, yaxud regional hakimiyyət orqanı tərəfindən yalnız qanun təyin etdiyi hüdudlar daxilində iddia edilə və ya məhdudlaşdırıla bilər.

5. Mərkəzi və ya regional orqanlar tərəfindən səlahiyyətlərin göndərilməsi zamanı yerli özünüidarə orqanları bu səlahiyyətlərin həyata keçirilməsini yerli şəraitə uyğunlaşdırmaq üçün mümkün olduğu qədərində sərbəstliyə malik olmalıdır.

6. Bilavasitə yerli özünüidarə orqanlarına aid olan istənilən qərarların planlaşdırılması və qəbul edilməsi prosesində mümkün olduğu qədər, vaxtında və müvafiq formada bu orqanlarla məsləhətləşmək zəruridir.

**Maddə 5. Yerli özünüidarə orqanlarının ərazi bölgüsünün müdafiəsi**

Yerli ərazi bölgüsü ilə əlaqədar hər hansı bir dəyişiklik zamanı öncədən müvafiq yerli özünüidarə orqanları ilə məsləhətləşmək zəruridir, qanunun yol verdiyi hallarda bu dəyişikliklər ola bilsin ki, referendum keçirilməsi yolu ilə edilə bilər.

**Maddə 6. İnzibati struktur və vasitələrin yerliözünüidarə orqanlarının vəzifələrinə müvafiqliyi**

1. Yerli hakimiyyət orqanları daha ümumi qanunvericilik müddəalarını pozmadan özləri öz daxili inzibati strukturlarını müəyyən etmək imkanına malik olmalıdırlar ki, yerli tələbatlara cavab verə və səmərəli idarəetməni təmin edə bilsinlər.

2. Yerli özünüidarə orqanları qulluqçularının iş şəraiti elə olmalıdır ki, təcrübə və bacarığın nəzərə alınması prinsipi əsasında yüksəkixtisaslı kadrların seçilməsini təmin etmək mümkün olsun; buna görə peşə hazırlığı, əmək haqqının ödənilməsi və qulluq üzrə irəliləmə üçün müvafiq şəraitin təmin edilməsi zəruridir.

**Maddə 7. Yerli səviyyədə səlahiyyətlərin həyata keçirilməsi şərtləri**

1. Yerli seçkili şəxslərin statusu onların səlahiyyətlərinin sərbəst həyata keçirilməsini təmin etməlidir.

2. Yerli seçkili şəxslərin statusu onların öz səlahiyyətlərini həyata keçirməsi ilə əlaqədar çəkilmiş xərclərinə müvafiq pul kompensasiyasını almağa, habelə zərurət yarandıqda, mənfəətə, yaxud qazanca görə müvafiq kompensasiya və müvafiq sosial sığortaya görə kompensasiya almağa ona imkan verməlidir.

3. Yerli seçkili şəxsin mandatı ilə bir araya sığmayan funksiyalar və fəaliyyət yalnız qanunla və ya əsas hüquqi prinsiplərlə müəyyən edilə bilər.

**Maddə 8. Yerli özünüidarə orqanlarının fəaliyyəti üzərində inzibati nəzarət**

1. Yerli özünüidarə orqanları üzərində hər hansı inzibati nəzarət yalnız Konstitusiya ilə və ya qanunla nəzərdə tutulmuş forma və hallarda həyata keçirilə bilər.

2. Yerli özünüidarə orqanları üzərində hər hansı bir inzibati nəzarət bir qayda olaraq, yalnız qanunçuluğa və konstitusion prinsiplərə əməl olunmasının təmin edilməsi üçün nəzərdə tutula bilər. Bununla belə, inzibati nəzarət həmçinin yerli özünüidarə orqanlarının onlara verilmiş səlahiyyətləri necə yerinə yetirmələrinə yuxarıda duran hakimiyyət orqanlarının nəzarətini də əhatə edə bilər.

3. Yerli özünüidarə orqanları üzərində inzibati nəzarət elə həyata keçirilməlidir ki, nəzarətedici orqanın müdaxilə dərəcəsi, bu müdaxilənin müdafiə etməyi nəzərdə tutduğu mənafenin əhəmiyyətinə uyğun olsun.

**Maddə 9. Yerli özünüidarə orqanlarının maliyyələşdirmə mənbələri**

1. Yerli özünüidarə orqanlarının milli iqtisadi siyasət çərçivəsində öz funksiyalarını həyata keçirəcəkləri zaman sərbəst surətdə istifadə edə biləcəkləri kifayət qədər şəxsi maliyyə vəsaitinə malik olmaq hüquq vardır.

2. Yerli özünüidarə orqanlarının maliyyə vəsaiti Konstitusiyanın və qanunun onlara verdikləri səlahiyyətlərə uyğun olmalıdır.

3. Yerli özünüidarə orqanlarının maliyyə vəsaitinin ən azı bir hissəsi yerli rüsum və vergilərin hesabına daxil olmalıdır ki, bunların da ölçüsünü yerli özünüidarə orqanları qanunun müəyyən etdiyi hədlərdə təyin etməkdə haqlıdır.

4. Yerli özünüidarə orqanları vəsaitinin əsaslandığı maliyyə sistemləri kifayət qədər çeşidli və çevik olmalıdır ki, yerli orqanların səlahiyyətlərinin həyata keçirilməsi zamanı yaranmış xərclərin dəyişilməsi prosesini gerçək imkanlar daxilində izləmək mümkün olsun.

5. Maliyyə baxımından daha zəif yerli özünüidarə orqanlarının müdafiəsi yerli orqanların maliyyələşdirilməsinin potensial mənbələrinin və onların üstündə olan xərclərin qeyri-bərabər bölüşdürülməsi nəticələrinin təsdiq edilməsi üçün nəzərdə tutulmuş maliyyə tarazlaşdırılması prosedurunun və ya ekvivalent tədbirlərin işə salınmasını tələb edir. Bu cür prosedur və ya tədbirlər yerli özünüidarə orqanlarının öz səlahiyyətləri daxilində seçmək azadlığını məhdudlaşdırmamalıdır.

6. Yenidən bölüşdürülmüş vəsaitin verilmə qaydasının yerli özünüidarə orqanları ilə lazımi surətdə razılaşdırılması zəruridir.

7. Yerli özünüidarə orqanlarına maliyyə yardımının verilməsi imkan daxilində konkret layihələrin maliyyələşdirilməsi üçün nəzərdə tutulmamalıdır. Maliyyə yardımının verilməsi yerli özünüidarə orqanlarının öz şəxsi səlahiyyətləri sahəsində seçmək azadlığının ziyanına olmamalıdır.

8. Kapital qoyuluşu üzrə xərclərin maliyyələşdirilməsi üçün yerli özünüidarə orqanlarının, qanunvericiliyə əməl etməklə, borc kapitalının milli bazara yolu olmalıdır.

**Maddə 10. Yerli özünüidarə orqanlarının birləşmək hüququ**

1. Yerli özünüidarə orqanları öz səlahiyyətlərini həyata keçirərkən, ümumi maraq doğuran vəzifələrin yerinə yetirilməsi məqsədilə dikər yerli özünüidarə orqanları ilə əməkdaşlıq etmək və qanunun müəyyən etdiyi hüdudlar daxilində, onlarla birləşmək hüququna malikdir.

2. Hər bir dövlətdə yerli özünüidarə orqanlarının ümumi mənafelərin müdafiəsi və irəliləyişi naminə birliklərə və yerli özünüidarə orqanlarının beynəlxalq birliyinə daxil olmaq hüququ tanınmalıdır.

3. Yerli özünüidarə orqanlarına qanunun müəyyən edə biləcəyi şərtlər əsasında, digər dövlətlərin bu cür orqanları ilə əməkdaşlıq etmək hüququ verilir.

**Maddə 11. Yerli özünüidarənin hüquqi müdafiəsi**

Yerli özünüidarə orqanları onların öz səlahiyyətlərini sərbəst surətdə həyata keçirilməsini və ölkənin Konstitusiya və qanunvericiliyi ilə təsbit edilmiş yerli özünüidarə prinsiplərinə əməl edilməsini təmin etmək üçün məhkəmə müdafiəsi hüququna malik olmalıdır.